İCBARİ
TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ




**Pilot ərazilərdə – Mingəçevir şəhərində və Yevlax rayonunda keçirilmiş sağlamlıq həftələri üzrə yekun**

# Hesabat

AR Prezidenti İlham Əliyevin Fərmanı ilə 1 yanvar 2017-ci il tarixindən Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqi üzrə pilot layihənin həyata keçirilməsinə başlanılmışdır. Bu fərmana əsasən pilot ərazilərdə yerləşən dövlət səhiyyə sisteminə daxil olan qurumlar (Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin şöbələri, sanitariya və epidemioloji xidmət, əczaçılıq və tibbi təhsil müəssisələri, habelə psixonevroloji və narkoloji dispanserlər istisna olmaqla) pilot layihə başa çatanadək Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tabeliyinə verilmişdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi pilot ərazilərdə sağlam həyat tərzinin təbliği, sakinlərin sağlamlığının qorunması və maarifləndirilməsi, xəstəliklərin erkən aşkarlanması, gələcəkdə baş verə biləcək xəstəliklərin vaxtında qarşısının alınması və sakinlərin ailə həkimləri ilə ünsiyyətinin möhkəmləndirilməsi məqsədi ilə "Sabaha sağlam addımla" şüarı altında 2017-ci ilin oktyabr-dekabr ayları ərzində aşağıdakı sağlamlıq həftələrini təşkil etmişdir:

02-15 oktyabr tarixlərində - Süd vəzisi xərçənginin profilaktikası üzrə sağlamlıq həftələri
09-22 oktyabr tarixlərində - Prostat vəzi xəstəliklərinin profilaktikası üzrə sağlamlıq həftələri
13-26 oktyabr tarixlərində - Skoliozun profilaktikası üzrə sağlamlıq həftələri
06-19 noyabr tarixlərində - Şəkərli diabet xəstəliyi və sağlam qidalanmaya həsr olunmuş sağlamlıq həftələri
13-26 noyabr tarixlərində - Hipertoniya və sağlam qidalanmaya həsr olunmuş sağlamlıq həftələri
20 noyabr-03 dekabr tarixlərində - Xolesterin və sağlam qidalanmaya həsr olunmuş sağlamlıq həftələri
04-17 dekabr tarixlərində - Tütün çəkmə ilə mübarizəyə həsr olunmuş sağlamlıq həftələri.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi pilot ərazilərin sakinlərinin sağlamlıq həftələri haqqında məlumatlandırılması və 3 ay ərzində (02 oktyabr-17 dekabr) davam edən sağlamlıq həftələrinə cəlb edilməsi məqsədi ilə Mingəçevir şəhərində Müşfiq Mirzəyev adına "Dostluq" parkında təntənəli açılış mərasimi təşkil etmişdir. Parkda qurulan 4 çadırda sakinlər sağlam həyat tərzi haqqında məlumatlandırılmış, əhali arasında ən çox rast gəlinən xəstəliklərin erkən aşkarlanması məqsədi ilə ilkin müayinələr (arterial qan təzyiqinin ölçülməsi, bədən kütlə indeksinin təyini, qanda şəkərin səviyyəsinin müəyyən edilməsi, süd vəzisinin manual müayinəsi, görmə itiliyinin müayinəsi, tənəffüsün həcmi və sürətinin təyini -spirometriya və s.) aparılmış, ailə və ixtisas həkimləri tərəfindən məsləhətlər verilmişdir,.

Sağlamlıq həftələri çərçivəsində müayinələrdən keçən sakinlərin sağlamlıq vəziyyətini qiymətləndirmək və profilaktika tədbirlərinin səmərəliliyi haqqında tam məlumat əldə etmək məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən registr hazırlanmışdır. Registrdə müayinələrin ilkin nəticələri, müraciətçinin şikayəti və sağlamlıq vəziyyəti, tibbi müayinələrdən

keçmə tezliyi, müayinə edən həkim tərəfindən laborator və instrumental müayinələrə göndərişlər haqqında məlumat, həkimlər tərəfindən verilmiş məsləhət və tövsiyələr qeyd olunmuşdur.

"Pilot ərazilərdə əhalinin sağlamlığının qorunması və erkən müayinələrə cəlb edilməsi" layihəsinin işçi qrupu registrdə toplanan məlumatları təhlil etmiş və onun əsasında sağlamlıq həftələri üzrə yekun hesabat hazırlamışdır.

Təhlil edilən məlumatlara əsasən ümumilikdə sağlamlıq həftələri çərçivəsində, açılış mərasimi daxil olmaqla 19651 nəfər müayinələrə cəlb olunmuşdur. Onlardan 442 nəfəri sağlamlıq həftələrinin açılış mərasiminin, 552 nəfəri süd vəzisinin xərçəngi, 197 nəfəri prostat vəzi xəstəlikləri, 9519 nəfəri skolioz, 2314 nəfəri şəkərli diabet və sağlam qidalanma, 2804 nəfəri hipertoniya və sağlam qidalanma, 2674 nəfəri xolesterin və sağlam qidalanma, 1149 nəfəri isə tütün çəkmə ilə mübarizə üzrə sağlamlıq həftələrinin iştirakçıları olmuşlar.

İlkin səhiyyə xidmətinin, ailə həkimi institutunun inkişafı və möhkəmləndirilməsi məqsədilə sağlamlıq həftələri çərçivəsində tibbi müayinələr pilot ərazilərdə fəaliyyət göstərən 7 Ailə Sağlamlıq Mərkəzlərində (ASM) aparılmışdır.

**Yevlax rayonu ərazisində**

1. Yevlax şəhər ASM
2. Xaldan ASM
3. Aran ASM
4. Malbinəsi ASM
5. Qaramanlı ASM

**Mingəçevir şəhəri ərazisində**

1. Mingəçevir şəhər ASM
2. Mingəçevir şəhər ASM 2

3 ay ərzində davam etmiş sağlamlıq həftələri ərzində Ailə Sağlamlıq Mərkəzlərinə müraciətlərin sayı da müxtəlif olmuşdur. Belə ki, Yevlax şəhər ASM-ə 8338 nəfər, Malbinəsi ASM-ə 1604 nəfər, Aran ASM-ə 4856 nəfər, Xaldan ASM-ə  2374 nəfər, Qaramanlı ASM-ə 1143 nəfər, Mingəçevir şəhər ASM-ə 517, Mingəçevir şəhər ASM 2 -yə isə 377 nəfər şəxs müraciət etmişdir. 442 nəfər isə sağlamlıq həftələrinin açılış mərasimində müayinələrdən keçmişdir.
(Cədvəl 1).

***Cədvəl 1.*** *Ailə Sağlamlıq Mərkəzlərinə edilən müraciətlərin və sağlamlıq həftələrinin açılış mərasimində tibbi müayinələrdən keçənlərin sayı*




Müraciət edən vətəndaşların yaş qrupları üzrə bölgüsünə gəldikdə 10084 nəfər 0-15 yaş, 1004 nəfər 16-25 yaş, 1517 nəfər 26-35 yaş, 1604 nəfər 36-45 yaş, 2023 nəfər 46-55 yaş, 2989 nəfər 56-70 yaş arasında, 430 nəfər isə 70 yaşdan yuxarı şəxslər olublar (Cədvəl 2).

***Cədvəl 2****. Ailə Sağlamlıq Mərkəzlərinə müraciət edənlərin və sağlamlıq həftələrinin açılış mərasimində tibbi müayinələrdən keçən vətəndaşların yaş qrupları üzrə göstəriciləri*




Ümumilikdə 18664 nəfər ailə həkimlərinin, 941 nəfər isə ixtisas həkimlərinin qəbulunda olublar. Sağlamlıq həftələrinin açılış mərasimində həkim qəbulunda olmamış, yalnız çəki və boylarının ölçülməsi, qanda şəkərin miqdarını müəyyən etmək üçün müraciət edənlərin sayı 46 nəfər təşkil

etmişdir (Cədvəl 3).




***Cədvəl 3.*** *Ailə və ixtisas həkimlərinin qəbulunda olan vətəndaşların sayı*

Müraciət edənlərin tibbi müayinələrdən keçmə tezliyinə görə bölgüsü aşağıdakı kimidir: (Cədvəl 4). 3830 nəfər son 1 ay, 2016 nəfər son 3 ay, 1263 nəfər son 6 ay, 857 nəfəri son 1 il, 821 nəfər isə son 3 il ərzində tibbi müayinədən keçmişdir. 3-5 il ərzində müayinələrdən keçənlərin sayı 572 nəfər təşkil edib. 773 nəfər sonuncu dəfə tibbi müayinədə 5 və daha çox il öncə olub. Qeyd edək ki, skoliozun profilaktikası üzrə sağlamlıq həftələri çərçivəsində (9519 nəfər iştirak edib) müayinələr əsasən orta məktəblərdə (Yevlax rayonu ərazisində 33 məktəb) keçirildiyindən iştirakçıların müayinə tezliyi haqqında məlumat əldə edilməmişdir.

Əldə olunan statistik göstəricilər deməyə əsas verir ki, icbari tibbi sığortanın tətbiqinə başlanması ilə vətəndaşların müayinələrə cəlb olunma tezliyində artım müşahidə olunmuşdur. Belə ki, 7109 nəfər son 6 ay ərzində müayinələrdən keçib.

***Cədvəl 4.*** *Müraciət edənlərin tibbi müayinələrdən keçmə tezliyi*



Sağlamlıq həftələri müddətində müraciət etmiş şəxslərdən 2042 nəfəri şikayətinə uyğun laborator və instrumental, həmçinin rentgenoqrafiya müayinələrindən keçmişdir.

Açılış mərasimində aparılmış müayinələr zamanı müraciətçilər arasında bir sıra patologiyaların ilkin əlamətləri ilk dəfə olaraq aşkar edilmişdir. Belə ki, ürək-qan damar sistemi xəstəlikləri üzrə ixtisaslaşmış müayinə çadırına müraciət edən 131 vətəndaşdan 29 nəfərində hipertoniya xəstəliyinin ilkin əlamətləri aşkar edilmişdir.

Qadın və uşaqların sağlamlığı üzrə ixtisaslaşmış çadırda da bir sıra patologiyalar erkən aşkarlanmış, müvafiq müayinə və müalicə üçün tövsiyələr verilmişdir. 110 nəfər müraciətçi müayinələrə cəlb olunmuş və onların 5 nəfərində süd vəzisi ilə bağlı patologiya aşkarlanmışdır.

14 nəfər bir yaşınadək körpədə erkən raxit əlamətləri, 26 körpədə isə çəki ilə əlaqədar problemlər aşkarlanaraq valideynlərə müvafiq tövsiyələr verilmişdir.

Prostat vəzinin xəstəlikləri və sağlam həyat tərzi üzrə ixtisaslaşmış çadırda müayinə olunan 18 vətəndaşın hər birində müxtəlif formada sidik–cinsiyyət sistemi ilə bağlı patologiyalar aşkar edilmiş, daha dərin müayinə və müalicə ilə əlaqədar müvafiq göndərişlər verilmişdir.

Süd vəzisi xərçənginin profilaktikası üzrə sağlamlıq həftələri ərzində 379 nəfərdə süd vəziləri ilə bağlı patologiyalar və yenitörəmələr aşkarlanıb.

Prostat vəzi xəstəliklərinin profilaktikası üzrə sağlamlıq həftələrində sidik-cinsiyyət sistemindən şikayətlərlə bağlı müraciət etmiş şəxslərin 110-da erkən mərhələdə müxtəlif xəstəliklər (prostatit, uretrit, prostat vəzin adenoması, sistit, pielonefrit və s.) aşkar edilmişdir.

Skoliozun profilaktikası üzrə sağlamlıq həftələrində 567 nəfərdə skolioz, 16 nəfərdə kifoz, 4 nəfərdə müxtəlif dərəcəli onurğa deformasiyaları, 100 nəfərdə 1-ci dərəcəli skolioz, 79 nəfərdə isə skolioza meyillilik olduğu müəyyən edilib.

Şəkərli diabet xəstəliyi və sağlam qidalanmaya həsr olunmuş sağlamlıq həftələrində 778 nəfərin 2-ci tip şəkərli diabet xəstəsi olduğu təsbit edilib. Ailə həkimləri tərəfindən 123 nəfərdə 2-ci tip şəkərli diabet xəstəliyi erkən aşkarlanaraq xəstələrin müvafiq müalicəyə başlaması təmin edilmişdir.

Hipertoniya və sağlam qidalanmaya həsr olunmuş sağlamlıq həftələrində 984 nəfərin hipertoniya xəstəsi olduğu müəyyən edilib, 226 nəfərdə isə hipertoniya xəstəliyi ilkin aşkarlanıb.

Xolesterin və sağlam qidalanmaya həsr olunmuş sağlamlıq həftələrində 383 nəfərdə isə qanda xolesterinin miqdarının yüksək olduğu (hiperxolesterinemiya) müəyyən edilmişdir və müvafiq müalicəyə başlanması təmin edilmişdir. 35 müraciətçidə xolesistit (öd kisəsinin iltihabı),

hepatosteatoz (qaraciyər piylənməsi), meteorizm (köp) əlamətləri müşahidə edilmiş və müvafiq tövsiyələr verilmişdir.

Sağlamlıq həftələrində müayinələrdən keçənlərin 1006 nəfərinin tütün istifadəçisi olduğu müəyyən edilib. Tütün istifadəçilərində müayinələr zamanı bir sıra patologiyaların olduğu aşkar edilmişdir. Belə ki, müayinədən keçənlərin 26 nəfərində kəskin bronxit, 95 nəfərində xroniki bronxit, 9 nəfərdə isə ağciyərlərin xroniki obstruktiv xəstəliyi müəyyən edilmişdir.

Beləliklə müayinədən keçənlərin 4006 nəfərində xəstəliklərin və patologiyaların ilkin əlamətləri aşkar olunmuş və onların müvafiq müalicəyə başlaması təmin edilmişdir. Aşkar olunan xəstəliklərdən böyüklər arasında ən çox süd vəziləri ilə bağlı patologiyalar və yenitörəmələr, diabet, hipertoniya, yeniyetmələrdə isə skolioz kimi xəstəliklər üstünlük təşkil edir.

Ailə həkimləri tərəfindən sağlamlıq həftələrinin iştirakçılarının hər birinə xəstəliklərin profilaktikası və ilkin əlamətləri, sağlam həyat tərzinə və sağlam qidalanmaya dair tövsiyələr verilmiş və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən hazırlanmış aşağıdakı maarifləndirici çap materialları paylanmışdır:

1.Süd vəzisinin xərçəngi ilə mübarizənin əsas yolu erkən diaqnostikadır!
2.Prostat vəzinin xəstəlikləri
3.Qamətli nəsil yetişdirək!
4.Diabet xəstəlik deyil, həyat tərzidir
5.Təzyiq altında həyat
6.Xolesterin haqqında nəyi bilməliyik?
7.Sağlam qidalanaraq sağlam yaşayın!
8.Siqaretə YOX deməyi bacarın!

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi valideynlərə dəstək məqsədilə "Uşağın sağlamlıq kitabçası"nı nəşr etmişdir. Kitabça Mingəçevir şəhərində və Yevlax rayonunda yeni doğulmuşların analarına paylanılır.

Kitabçada körpəyə qulluq zamanı gigiyenik proseduralara riayət olunmasının və ana südünün əhəmiyyəti, körpənin düzgün əmizdirilməsi qaydaları haqqında ətraflı məlumat verilir.

Kitabçada xüsusi fəsil körpənin yuxu rejiminə həsr edilib. Nəşrdə körpənin düzgün qidalandırılması və qida rejiminə alışdırılması ilə bağlı fəsil də mövcuddur. Körpənin formalaşmamış mədə-bağırsaq sistemi ilə əlaqədar yaranan köp, qəbizlik və diareya kimi problemlərdən də kitabçada bəhs edilib. Eyni zamanda masaja, dişlərin çıxmasına, peyvəndlərin vurulmasına, uşaqların inkişaf dövrlərinə görə tibbi müayinə və məsləhətlərin verilmə qaydaları, körpənin sağlam inkişafına nəzarət etmək məqsədi daşıyan müxtəlif cədvəllər yerləşdirilib.

Sağlamlıq həftələri çərçivəsində əhalinin ixtisaslı tibbi müayinələrə əlçatanlığının təmin edilməsi, xəstəliklərin erkən aşkarlanması və ağırlaşmaların qarşısının alınması məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Milli Onkologiya Mərkəzi (MOM) ilə birlikdə 10-12 oktyabr 2017-ci il tarixində Yevlax şəhər ASM-in ərazisində yerləşdirilmiş MOM-un Mobil Diaqnostik Kompleksində müayinələr təşkil etmişdir. Kompleksdə ginekoloq, mammoloq, onkoloq, uroloq, radioloq, endokrinoloq və LOR həkim konsultasiyaları verilib, rentgenoqrafiya, mammoqrafiya və ultrasəs müayinələri aparılıb.

3 gün ərzində davam edən müayinələr ərzində 482 nəfərə xidmət göstərilmişdir və ümumilikdə 1404 müayinə aparılmışdır. 88 nəfər mammoqrafiya, 77 nəfər rentgenoqrafiya, 298 nəfər isə ultrasəs müayinəsindən keçmişdir. Bu müayinələr zamanı 8 nəfərdə süd vəziləri, 24 nəfərdə qadın cinsiyyət üzvləri (uşaqlıq, uşaqlıq boynu, yumurtalıq və s.), 4 nəfərdə qalxanabənzər vəzi ilə bağlı patologiyalar və yenitörəmələr qeydə alınmışdır. Müxtəlif formada sidik-cinsiyyət sistemi ilə bağlı patologiyalar isə 10 nəfər vətəndaşda təyin edilmişdir.

Əhaliyə göstərilən xidmətin keyfiyyətinin artırılması məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi "Novo Nordisk" şirkətinin dəstəyi ilə sağlamlıq həftələri çərçivəsində cari ilin sentyabrın 19-da və noyabrın 17-də Yevlax rayonunda və Mingəçevir şəhərində yerləşən Ailə Sağlamlıq Mərkəzlərində çalışan ailə həkimlərinin şəkərli diabet xəstəliyinə dair bilik və bacarıqlarını təkmilləşdirmək üçün təlim təşkil edilmişdir. Bundan başqa, sentyabrın 19-da keçirilən digər təlimdə ailə həkimlərinə tənəffüsün həcmi və sürətinin təyini - spirometriyadan istifadə qaydaları öyrədilmişdir.

Şəkərli diabetlə xəstə şəxslərin səhhətlərində yarana biləcək problemlərin və diabetlə bağlı ağırlaşmaların profilaktikası məqsədilə Agentlik tərəfindən pilot ərazilərdə Şəkərli Diabet Məktəblərinin yaradılmasına başlanılmışdır. Şəkərli Diabet Məktəbləri pilot ərazilərdə şəkərli diabet xəstəliyindən əziyyət çəkən əhalinin şəkərli diabetə nəzarətə dair biliklərini artırmaq, xəstəliyə bilavasitə pasiyent tərəfindən də nəzarəti təmin etmək, xəstəliyin ağırlaşmalarını erkən aşkarlamaq və vaxtında qarşısını almaq üçün müstəsna rol oynayacaq. Məktəb şəkərli diabetlə yaşayan insanların həyat keyfiyyətinin yaxşılaşdırılması üçün əhəmiyyətli olacaq.

Tütünlə mübarizə üzrə sağlamlıq həftələri ərzində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi ilə birgə əməkdaşlıq çərçivəsində Mingəçevir Dövlət Universitetində təhsil alan tələbələr üçün maarifləndirici aksiya da təşkil edilmişdir. Çıxış edənlər təhsil ocağının akt zalında toplaşan tələbələrə tütün çəkmə kimi təhlükəli vərdişin zərərlərinə, tütün çəkmənin növlərinə və tütün çəkmədən imtina üsullarına həsr olunmuş mühazirə və "Tütün – öldürücü təhlükə" adlı təqdimatla çıxış etmişlər. Tədbir çərçivəsində aktiv və passiv tütün çəkmə, tütünlə bağlı dünyada və Azərbaycanda rəsmi statistik göstəricilər və tütün çəkmə ilə mübarizə tədbirləri haqqında ətraflı məlumat verilmişdir.

Açılış mərasiminin və sağlamlıq həftələrinin yekunları haqqında ictimaiyyəti məlumatlandırmaq məqsədilə **8** press-reliz hazırlanıb. Bunun nəticəsi olaraq KİV-də **205 yazı** dərc edilib, **9 süjet və veriliş** yayımlanıb. Beləliklə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin təşəbbüsü ilə “Sabaha sağlam addımla” şüarı altında həyata keçirilən sağlamlıq həftələri KİV-də ümumilikdə 195 dəfə işıqlandırılıb.

Aksiyaların KİV-də işıqlandırılma bölgüsünə gəldikdə, açılış mərasiminə həsr olunmuş yazıların sayı 45, TV kanallarda yayımlanan süjet və verilişlərin sayı 4 olub. Süd vəzisinin xərçəngi və prostat vəzi xəstəliklər üzrə sağlamlıq həftələri haqqında 30 yazı dərc edilib və 3 TV süjet yayımlanıb. Skoliozun profilaktikasına həsr olunmuş sağlamlıq həftələrinə 71 yazı və 2 TV süjeti həsr olunub. Şəkərli diabet xəstəliyinin profilaktikası üzrə aksiya 24 dəfə, hipertoniya və xolesterin, sağalam qidalanma üzrə sağlamlıq həftələri isə 16 dəfə işıqlandırılıb. Tütünlə mübarizə üzrə sağlamlıq həftələrinə dair 13 yazı dərc edilib.